***Prezident İlham Əliyev iyulun 22-də ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində dünya ölkələrinin böyük əksəriyyətindən fərqli olaraq, artıq iqtisadiyyatımızın tənəzzüldən çıxdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı bu sahənin inkişafında dinamik artımın ilin sonuna qədər daha da yüksələcəyini əminliklə vurğulayıb: "Sevindirici məsələ odur ki, qeyri-neft sektorumuz 5 faizdən çox artıb. Bu, doğrudan da böyük rəqəmdir, böyük göstəricidir, görülmüş işlərin təzahürüdür".***



# İqtisadi artım prioritet istiqamətlərdəndir

Azərbaycanda pandemiyanın doğurduğu çətinliklərdən irəli gələn iqtisadi tənəzzülün aradan qaldırılması sirr deyil. Əslində, bunun səbəbi dövlətimizin başçısının rəhbərliyi ilə son 18 ildə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin, aparılan islahatların nəticəsində yaranan möhkəm təməl, güclü bazadır. Başqa sözlə, ölkəmiz sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlılığı səbəbindən xarici iqtisadi təsirləri neytrallaşdıra bilib, nəzərdə tutulan bütün iqtisadi islahatları uğurla gerçəkləşdirməyə nail olub. Bu zaman iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı reallaşdırılan layihələr önəmli rol oynayıb.

Fikrimizin təsdiqi olaraq, burada neftdən asılılığın minimuma endirilməsi məqsədilə qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərə qısa nəzər salaq. Belə ki, iqtisadi tərəqqidə "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" prinsipini strateji kurs kimi müəyyənləşdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. vəzifələr uğurla gerçəkləşdirilib.

Ölkə iqtisadiyyatının real sektorunun sürətli inkişafının təmin olunması istiqamətində hökumətin düşünülmüş plan əsasında həyata keçirdiyi layihələr, hətta pandemiya dönəmində bu sektorun ayrı-ayrı sahələrində yetərli pozitiv nəticələr əldə etməyə imkan verir.

Dünya iqtisadiyyatında ciddi geriləmələrin nəzərə çarpdığı və bu səbəbdən Azərbaycan iqtisadiyyatının da müəyyən çətinliklər yaşadığı indiki vaxtda isə qeyri-neft sənayesində 10 faizdən çox artımın qeydə alınması dövlətimizin başçısının vurğuladığı kimi, hökumətin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı düzgün siyasətin məntiqi nəticəsidir.

Sənayenin qeyri-neft-qaz sektorunda artım qeydə alınması təsadüfi deyil. Bu, neft sənayesində əldə edilən artımın mərhələli şəkildə qeyri-neft sektoruna transfer olunması deməkdir. Belə bir vəziyyət, həm də ondan xəbər verir ki, qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Yeri gəlmişkən, qeyd edək ki, hazırda qeyri-neft sektorundakı artım ümumi iqtisadi artımdan daha yüksəkdir.

Azərbaycanın regionda güclü sənaye mərkəzinə çevrilməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanıb. Pandemiya və xarici təsirlərə baxmayaraq, qeyri-neft sənayesi ən yüksək templərlə artıb (2020-ci ildə 12,5 faiz). Sənaye sahələri modernləşdirilib və strukturu təkmilləşdirilib, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli, elmtutumlu və innovativ istehsal genişləndirilib.

Bu gün dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesinin inkişafı məqsədilə sənaye parkları və məhəllələrinin yaradılması, rezidentlərin fəaliyyətinin genişləndirilməsi, yeni iştirakçıların cəlb edilməsi diqqət mərkəzində saxlanılır.

Azərbaycanın sənaye parklarında yüksək nəticələrə nail olmaq üçün rezidentlərin səmərəli fəaliyyəti məqsədilə hər cür şərait yaradılıb, vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilib. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar. Bundan başqa, sənaye parklarında dövlət vəsaiti hesabına müasir infrastruktur yaradılıb, sahibkarların vəsaitlərini investisiya qoyuluşuna yönəltmələri təmin edilib.

Bütün bu tədbirlərin nəticəsi cari ilin ilk yarısı üzrə statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, ilin 6 ayında ölkənin qeyri-neft-qaz sektorunda 5,1 faiz artım qeydə alınıb. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında 23,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib.

Hazırda ölkədə ümumi daxili məhsulun ½-dən, o cümlədən qeyri-neft iqtisadiyyatının ¼-dən çoxu sənaye sahələrində istehsal olunur. Ötən il ərzində sənaye zonalarında (parklar və məhəllələr) 1,3 milyard manatlıq məhsul buraxılıb, bunun 55 faizi ixrac olunub.

Qeyri-neft sənayesinin əsas sahələrini formalaşdıran maşınqayırma, avadanlıq istehsalı, cihazqayırma və tikinti materiallarının istehsalı sahələrində yeni rəqabətqabiliyyətli müəssisələr yaradılıb, o cümlədən Gəncədə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, Sumqayıtda günəş panellər, Qaradağda metal konstruksiyalar, Hacıqabulda seramik plitələr istehsalı müəssisələri qurulub.

Bakıda və regionlarda toxuculuq, geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı, kağız və karton istehsalı, mebel istehsalı və digər qeyri-neft emal sənayesi sahələrində fəaliyyət göstərən yeni müəssisələr tikilib istifadəyə verilib.

Qeyri-neft sektorunun dinamik inkişafı makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına müsbət təsir göstərib. Bu, cari ilin ilk yarısı üzrə statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, bu ilin 6 ayında ölkədə 39 milyard 915 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz çox ümumi daxili məhsul istehsal edilib. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,7 faiz azalsa da, qeyri- neft-qaz sektorunda 5,1 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 3 987,6 manata bərabər olub.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında 23,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib.

Bu ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 169 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər, 100 ölkəyə məhsul ixrac olunub, 156 ölkədən idxal edilib.

Ölkə sənayesinin qeyri-neft-qaz sektorunda artım qeydə alınmasının əsas səbəblərindən biri də son il ərzində sahibkarlığın inkişafının diqqət mərkəzində saxlanılması ilə bağlıdır. Belə ki, ötən müddətdə bu sektorda yoxlamalar dayandırılıb və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" qəbul edilib. Sahibkarlıq fəaliyyəti üçün lisenziyaların verilməsi qaydası sadələşdirilib, 24 fəaliyyət növü üzrə lisenziyaların ASAN xidmət mərkəzlərindən alınması reallaşdırılıb. Həmçinuin lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, dövlət rüsumunun məbləği iki dəfə, lisenziyaların verilməsi müddəti isə 15 gündən 10 iş gününə endirilib.

Sonda onu da vurğulayaq ki, Vətən müharibəsi nəticəsində 30 ilə yaxın dövr ərzində işğal altında qalan torpaqların azad edilməsi Azərbaycanın iqtisadi imkanlarını daha da genişləndirməyə əlverişli şərait yaradıb. Düşməndən təmizlənən ərazilərin sənaye potensialı kifayət qədər yüksəkdir. Bu isə bölgənin yaxın zamanlarda ölkə iqtisadiyyatında əlavə dəyər yaradacağını deməyə əsas verir. Buna görə də Qarabağda da sənaye parklarının yaradılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyi tərəfindən hazırda bu istiqamətdə müvafiq işlər görülür.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 30 iyul.-S.1.